# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 232

Bakı şəhəri, 20 avqust 2021-ci il

**"Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 12 mart tarixli 49 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 15-ci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 12 mart tarixli 49 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 305; 2009, № 2, maddə 141; 2011, № 11, maddə 1063; 2014, № 8, maddə 1008; 2016, № 4, maddə 808; 2017, № 2, maddə 323; 2018, № 7 (II kitab), maddə 1642; 2019, № 5, maddə 961) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "7" rəqəmi "9" rəqəmi ilə əvəz edilsin.

2. "Kollegiyanın üzvləri" bölməsində "Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının rəhbərinin müavini" sözləri "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru" sözləri ilə əvəz edilsin və həmin sözlərdən sonra "Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktoru", "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***